

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 184 (23.826)

*6 oktyabr 2021-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*



Oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyev bildirib ki, bu gün artıq Cəbrayılda bir neçə obyektin təməl daşı qoyulub. Bu gün Cəbrayıl şəhərinin baş planının təqdimatı olacaqdır və fəal işlər başlamışdır. Bu gün bir ilə görülmüş işlərə qiymət verərkən, əlbəttə, görürük ki, dövlətimizin, xalqımızın nə qədər böyük potensialı var. Çünki ermənilər tərəfindən tamamilə dağıdılmış ərazilərə cəmi bir ildən sonra həyatı qaytarmaq, insanları qaytarmaq böyük potensialdan xəbər verir. Biz bütün gücləri səfərbər etmişik və edəcəyik ki, qısa müddət ərzində Cəbrayılı və bütün başqa rayonlarımızı yenidən quraq, bərpa edək.

Dövlətimizin başçısı bildirib ki, oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq. Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi. Bunun çox böyük rəmzi mənası var idi. Bu bizim Ordumuza əlavə güc verdi, inam verdi. Bu Qələbədən sonra bizim şanlı Ordumuz öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir.

Dövlətimizin başçısı Cəbrayıl Memorial Kompleksinin təməlini qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 5 oktyabr tarixli Sərəncamları ilə Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə bir qrup təhsil işçisi "Əməkdar müəllim" fəxri adına, orden və medallara layiq görülmüşdür. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikasının təhsil işçiləri də vardır:

**Əliyeva Zəhra İsa qızı**
**Həsənova Vəfa Əflatun qızı**
**Quliyeva Aytən Qəhrəman qızı**
**Süleymanova Səadət Yunis qızı**

"Əməkdar müəllim" fəxri adı ilə,

**Babayev Habil Heydər oğlu**
**Əhmədova Tutu Rza qızı**
**Quluyeva Sədaqət Tofiq qızı**
**Məmmədova Elnarə Bahadir qızı**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Naxçıvan Gənc Müəllimlər Assosiasiyası yaradıldı



*Oktyabrın 5-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü və "Naxçıvan Gənc Müəllimlər Assosiasiyası" İctimai Birliyinin təsis edilməsi ilə bağlı konfrans keçirilib.*

Konfransı giriş sözü ilə açan təhsil naziri Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında 2021-ci il 4 oktyabr tarixli Sərəncamı ilə konfrans iştirakçılarını tanış edib, müəllim əməyinə verdiyi qiymətə görə minnətdarlığı bildirib, təltif olunan müəllimləri, həmçinin konfrans iştirakçılarını Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edib.

Nazir müəllimlərə göstərilən dövlət qayğısından danışaraq bildirib ki, muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər görülüb. Müəllim əməyinə verilən yüksək qiymətin nəticəsidir ki, 400-dən çox müəllim Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülüb, "Tərəqqi" medalı ilə təltif edilib.

Bildirilib ki, muxtar respublikada müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi sahəsində də zəruri tədbirlər həyata keçirilib. Ümumtəhsil müəssisələrinin pedaqoji heyəti üçün sistemli təlimlər təşkil edilib. Təkcə ötən tədris ilində ümumtəhsil məktəblərindən 200-ü STEAM təlimləri olmaqla, 1200-dən çox müəllim müxtəlif ixtisasartırma kurslarına, təlimlərə cəlb edilib. Müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə sertifikasiyası aparılıb, 505 müəllim şahmat sertifikatı ilə təmin olunub.

Diqqətə çatdırılıb ki, muxtar respublikada müəllim əməyinə verilən qiymət onların fəallığını artırıb, son iki ildə 4 müəllim "Pedaqoji mühazirə müsabiqəsi"nin, 9 müəllim isə "Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi"nin qalibi olub.

Nazir vurğulayıb ki, 2018-2019-cu tədris ilindən etibarən müəllimlərin işə qəbulunda müsabiqə mexanizmi tətbiq edilib, qaydalar şəffaflıq və obyektivlik baxımından əhəmiyyətli dərəcədə təkmilləşdirilib, ümumtəhsil məktəblərinin bilikli kadrlarla təminatı yaxşılaşıb. Bu günədək işə qəbulla bağlı keçirilən müsabiqələrdə yüksək nəticə göstərən kadrlardan 586-sı müəllim, 140-ı isə müxtəlif vəzifələr olmaqla, ümumilikdə, 726 gənc kadr işlə təmin edilib.

Vurğulanıb ki, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısı, tədrisin yüksək səviyyədə təşkili üçün yaradılan müasir təhsil infrastrukturu, informasiya kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin təhsilə tətbiqi, müəllim nüfuzunun artırılması istiqamətində həyata keçirilən tədbirlər müəllim əməyinin bəhrələrini artırıb, təhsildə uğurlu nəticələr əldə olunub. Belə ki, 2020-2021-ci tədris ilində ümumtəhsil məktəblərini tam orta təhsil bazasından xüsusi nailiyyətlərlə bitirən məzunlardan 17-si "Qızıl", 17-si "Gümüş" nişana, 41-i fərqlənmə attestatına layiq görülüb, 26 şagird Respublika fənn olimpiadasının qalibi olub. Qəbul imtahanlarında iştirak edən 2695 məzundan 1932-si və ya 72 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Məzunlardan 261-i 500-700 arası nəticə göstərib, onlardan da 3-ü Prezident təqaüdünə layiq görülüb.

Bildirib ki, muxtar respublikada keyfiyyətli tədris mühitində öz sənətini sevən kifayət qədər peşəkar müəllim formalaşıb. Bunların sırasında 1400-dən artıq gəncin olması onları bir araya gətirəcək birliyin yaradılmasına zərurət yaradıb. Beynəlxalq Müəllimlər Günündə Naxçıvan Gənc Müəllimlər Assosiasiyasının təsis konfransının keçirilməsi yaddaqalan hadisə olmaqla yanaşı, gənc müəllimlər arasında əməkdaşlığı, təcrübə mübadiləsini daha da inkişaf etdirəcək, gənc müəllimlərin fəallığını artıracaq, onların peşəkar və fərdi inkişaflarına öz töhfəsini verəcəkdir.

Konfransda Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, Aşağı Yaycı kənd tam orta məktəbinin direktoru Yeganə Məmmədova, Şahbuz rayon Ağbulaq kənd tam orta məktəbinin ingilis dili müəllimi, Prezident təqaüdçüsü Nigar Mirzəmmədova, Culfa rayon Göydərə kənd tam orta məktəbinin müəllimi, IV Qrant müsabiqəsinin qalibi Asudə Məmmədova çıxış ediblər. Çıxışlarda muxtar respublikada müəllimlərin fəaliyyəti üçün yaradılan şəraitdən, müəllim peşəsinə marağın artmasından bəhs olunub, təhsilə və müəllim əməyinə göstərdiyi dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq ifadə edilib.

Çıxışlardan sonra "Naxçıvan Gənc Müəllimlər Assosiasiyası" İctimai Birliyinin Nizamnaməsi oxunub. Birliyin İdarə Heyətinin 13 nəfərdən ibarət tərkibi səsə qoyularaq təsdiq edilib. Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova Naxçıvan Gənc Müəllimlər Assosiasiyasının İdarə Heyətinin sədri seçilib.

Gülxanım Orucova göstərilən etimada görə minnətdarlığını bildirib, qeyd edib ki, Naxçıvan Gənc Müəllimlər Assosiasiyasının təsis edilməsi gənc müəllimlərə göstərilən dövlət qayğısının daha bir bariz nümunəsidir. Üzərinə düşən vəzifəni icra edərək gənc müəllimlər arasında əməkdaşlığı daha da inkişaf etdirəcəyini, istedadlı gənc müəllimlərin aşkara çıxarılması, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində səylə çalışacağını bildirib. Konfransda assosiasiyanın fəaliyyət istiqamətlərini əhatə edən tədbirlər planı təsdiq edilib.

Sonra "Heydər Əliyev və Azərbaycan gəncliyi" filmi nümayiş olunub, tədbir bədii hissə ilə yekunlaşıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Biznes Mərkəzində Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı* (BMT QAK) *və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə aid dövlət təşkilatlarının əməkdaşları üçün "Sığınacaq sistemində yönləndirmə mexanizmləri" mövzusunda təlim olub.*

## Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə təlim keçirilib



Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Qaçqın statusunun müəyyənləşdirilməsi idarəsinin rəisi Aydan Seyidova açaraq təlimin əhəmiyyətindən bəhs edib, xidmət tərəfindən qaçqınların, sığınacaq axtaran şəxslərin hüquqlarının həyata keçirilməsi, müraciətetmə qaydaları, müraciətlər zamanı gerçəkləşdirilən proseslər və himayə olunması barədə ətraflı məlumat verib.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Hüquq şöbəsinin müdiri Octavian Mohorea təşkilatın Azərbaycandakı nümayəndəsi və bütün kollektiv adından qonaqpərvərliyə, təlim üçün yaradılan şəraitə görə təşəkkürünü bildirib. Keçən həftə oxşar təlimin Lənkəranda keçirildiyini və Naxçıvandakı təlimin də maraqlı təqdimatlar və müzakirələr şəklində baş tutacağına əminliyini vurğulayan Octavian Mohorea ötən illər ərzində Azərbaycanla konkret nailiyyətlərlə nəticələnən əməkdaşlığın aparıldığını diqqətə çatdırıb, BMT QAK-ın fəaliyyəti barədə danışıb. Qeyd edib ki, təşkilat 70 il əvvəl, İkinci Dünya müharibəsindən sonra yaradılıb. Onun işi tamamilə humanitar prinsiplərə əsaslanır, siyasi xarakter daşımır, əsas məqsəd qaçqınlar, sığınacaq axtaranlar, məcburi köçkünlər və geri dönənlər kimi qaçmaq məcburiyyətində qalan insanların hüquqlarını və rifahını qorumaqdır.

Bildirilib ki, son illərdə təqib, münaqişə, insan hüquqlarının pozulması və ya ictimai asayişi ciddi şəkildə pozan hadisələr səbəbindən köçkünlərin sayı artmaqdadır. Belə ki, əldə edilən məlumata görə, keçən ilin sonunda dünyada 82,4 milyon insan məcburi köçkün vəziyyətinə düşmüşdü, onların bir çoxu ölkələrindən kənarda beynəlxalq sığınacaq axtarırdı. 1992-ci ildən bəri bu təşkilat Azərbaycanda məcburi köçkün və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının qorunması, onlara kömək edilməsi və həll yollarının tapılmasında hökumətə dəstək verir.

Vurğulanıb ki, bugünkü təlim beynəlxalq müdafiəni təmin etmək üçün tətbiq edilməli olan vacib müddəalara və tədbirlərə əsaslanır. Beynəlxalq müdafiə, beynəlxalq humanitar, insan hüquqları və qaçqın hüququ da daxil olmaqla, müvafiq hüquq orqanlarına uyğun olaraq hüquqların bərabər şəkildə əldə edilməsinin və istifadəsinin təmininə yönəlmiş bütün hərəkətləri əhatə edir. Bu baxımdan dövlətlər sığınacaq istəyən şəxslərə beynəlxalq müdafiənin təmin edilməsi də daxil olmaqla, yurisdiksiyasındakı bütün şəxslərin, o cümlədən vətəndaşlığı olmayan şəxslərin hüquqlarına hörmət edilməsini təmin etmək üçün əsas məsuliyyət daşıyırlar. Başqa ölkələrdə sığınacaq axtarmaq və sığınmaq hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit edilmiş fundamental bir hüquqdur və hər bir şəxs digər ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir.

Sonra Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Qaçqın statusunun müəyyənləşdirilməsi idarəsinin baş inspektoru Rüfət Əliyev və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyinin Qaçqın statusunun müəyyənləşdirilməsi üzrə milli müşaviri İlkin Abdiyev təqdimatlarla çıxış ediblər. Təqdimatlar Azərbaycan Respublikasında qaçqın məsələləri və bu sahəni tənzimləyən qanunvericilik aktları, vəsatətlərin qəbul edilməsi və baxılması qaydaları, qaçqın statusunun müəyyənləşdirilməsi üçün prosedurlar və meyarlar, qaçqın statusuna dair konvensiya və protokol, sığınacaq axtaran şəxslərin həbsə alınmasına tətbiq edilən meyarlara, standartlara və həbsin alternativlərinə dair göstərişlər və digər məsələləri əhatə edib. Təlim diskussiya, qarşılıqlı fikir mübadiləsi şəraitində keçib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**

# Ərzaq təhlükəsizliyinin təmin olunması üçün kompleks tədbirlər görülür

***Hər bir dövlətin qarşısında duran əsas məsələlərdən biri əhalisini etibarlı şəkildə ərzaq məhsulları ilə təmin etməkdir. Ərzaq təhlükəsizliyi dedikdə bütün insanların aktiv və sağlam həyat tərzi yaşamaq üçün keyfiyyətli qida məhsullarına olan tələbatının fasiləsiz ödənilməsini təmin edən tədbirlər kompleksi nəzərdə tutulur. Ərzaq çatışmazlığı çox ciddi problemdir. Azərbaycan Respublikası 2000-ci ilin iyun ayında BMT-nin Beynəlxalq Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının (FAO) ərzaq təhlükəsizliyi proqramına qoşulub, bunun ardınca 2 mart 2001-ci il tarixdə “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı” təsdiq edilib. Xalqımızın ümummilli lideri Heydər Əliyev ölkənin etibarlı şəkildə ərzaqla təmin olunma məsələsinin təkcə bu gün üçün deyil, gələcək nəsillər üçün də vacibliyini nəzərə alaraq özünün inkişaf strategiyasının başlıca elementi hesab edirdi.***

Ulu öndərin bu strategiyası hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, məqsədyönlü tədbirlər həyata keçirilir. İcrası uğurla başa çatmış “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” da bunun əyani ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da ərzaq təhlükəsizliyinin təmin edilməsi prioritet vəzifələr sırasındadır. Ona görə də bu istiqamətdə görülən işlərin həcmi getdikcə artır, coğrafiyası genişlənir.

26 may 2021-ci il tarixdə “Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyi: yerli istehsal və uğurlu nəticələr” mövzusunda keçirilən konfransda da əsas məqsəd əhalinin etibarlı şəkildə ərzaqla təmin edilməsi üçün düzgün siyasətin aparılması və “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”na uyğun kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün qarşıya qoyulan tədbirlər kompleksini reallaşdırmaqdan ibarət olub.

Bu istiqamətdə həyata keçirilən tədbirlər artıq davamlı xarakter alması ilə diqqəti cəlb edir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının mövcud potensialı və daxili resursları blokadanın və pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, iqtisadiyyatın genişləndirilməsini və ixracın şaxələndirilməsini artırmaqdadır. Xüsusilə də yerli ərzaq məhsullarının istehsalına diyarımızda ciddi diqqət yetirilir və bu, xarici ticarət əlaqələrinin coğrafiyasının genişlənməsinə öz töhfəsini verir.

Dünya təcrübəsində ixracyönümlü məhsulların təşviqi yollarından biri beynəlxalq sərgilərin keçirilməsidir. Ötən il ərzində “Made in Azerbaijan” vahid stendi çərçivəsində Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində, “Prod Expo – 2020” və Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində təşkil olunan “Gulfood-2019” beynəlxalq qida sərgisində muxtar respublikadan “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal edilən 133 çeşiddə məhsullar nümayiş edilib. Bu sərgidə Naxçıvan mənşəli məhsul və xidmətləri xarici bazarlarda təşviq edən sahibkarlıq subyektləri təmsil olunub.

Ötən dövr ərzində yerli istehsal və emal müəssisələri tərəfindən istehsal edilmiş məhsullar ABŞ, Belarus, Latviya, Litva, Liviya, Belçika, BƏƏ, Oman, Rusiya, Tacikistan, Çin, Gürcüstan, İran, İraq, Türkiyə, Türkmənistan, Ukrayna və Yəmən olmaqla həmin dövlətlərə sənaye məhsulları ilə yanaşı, mineral sular, meyvə-tərəvəz və sair məhsullar da ixrac edilib.

Muxtar respublika əhalisini keyfiyyətli qida məhsulları ilə təmin etmək məqsədilə beynəlxalq akkreditasiyadan keçmiş İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya istifadəyə verilib. İxrac əməliyyatları üçün tələb olunan sertifikatlar da laboratoriyadan alınır. Bu sertifikatlar ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına imkan verir.

Əhalinin ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına ödənilməsi cari ildə də diqqət mərkəzində saxlanılıb. Bunun ifadəsidir ki, diyarımızda 2021-ci ilin yanvar-avqust aylarında 1 milyard 878 milyon 670 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu da 2020-ci ilin müvafiq dövrünə nisbətən 0,7 faiz çoxdur. Bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz artaraq 4 min 66 manata çatıb.

2021-ci ilin yanvar-avqust aylarında 338 milyon 53 min 500 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 15333 ton, süd istehsalı 70239 ton olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,8 faiz, süd istehsalı isə 1,7 faiz artıb.





Məlumdur ki, taxılçılıq insanın ərzaq balansı rasionunun yarısını təşkil edir. Qeyd edilməlidir ki, bu sahə də hər il inkişaf edir, yeniyeni nailiyyətlər əldə olunur. Ötən ilin payızında və cari ilin yazında muxtar respublikada 32721 hektar sahədə taxıl əkilmişdi. Mövsüm boyu əkin sahələrinə göstərilən aqrotexniki qulluq öz bəhrələrini verib. Əvvəlcədən həyata keçirilən hazırlıq tədbirləri, torpaq mülkiyyətçiləri, mexanizatorlar arasında aparılan maarifləndirici tədbirlər yeni nəticəyə nail olunmasında başlıca rol oynayıb. Belə ki, sahələrdən hektarın orta məhsuldarlığı 31,6 sentner təşkil etməklə 103372 ton yüksəkkeyfiyyətli taxıl götürülüb.

Görülən işlər sırasında yaradılmış taxıl anbarlarını da qeyd etmək lazımdır. “Naxçıvan Taxıl Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində fəaliyyət göstərən 2009-cu ildə tutumu 27 min tonadək uzunmüddətli və tutumu 20 min olan qısamüddətli olan taxıl anbarlarının istifadəyə verilməsi istehsalçıların məhsul tədarükü zamanı rastlaşdıqları problemlərin aradan qaldırılmasında mühüm rol oynayır.

Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında toxumçuluq xüsusi yer tutur. Muxtar respublikada ötən dövr ərzində “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin yenidən qurulması da bu məqsədə xidmət edir.

Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramlarının icrası uğurla həyata keçirildiyindən əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənir və tələbatdan artıq istehsal olunan məhsulların ixracına geniş imkanlar yaranır.

Torpaq sahələrinin əkin normalarına uyğun suvarma suyu ilə təmin edilməsi üçün irriqasiya və meliorasiya sistemləri daim yeniləşdirilir. 2005-ci ildə istifadəyə verilən və tutumu 100 milyon kubmetr olan Heydər Əliyev Su Anbarının, yeni su artezian quyularının vurulması, kəhrizlərin təmiri əkinçilikdə bol məhsul istehsalına töhfəsini verib. Bu tədbirlərin də həcmi getdikcə artır. Muxtar respublikanın bir sıra bölgələrində qapalı suvarma şəbəkələrinin qurulması bu sahəyə davamlı qayğının ifadəsidir.

Kənd təsərrüfatında məhsul istehsalının və məhsuldarlığının artırılmasına təsir edən amillərdən biri də sahələrin mineral gübrələrlə təchiz edilməsidir. Bu xətlə məhsul istehsalçılarına 70 faiz güzəştli şərtlərlə 9 min 192 ton mineral gübrə verilib, 2021-ci il üçün 7 min ton karbamid gübrəsi alınıb.

Aqrar sahibkarlığın inkişafında soyuducu anbarların və istixana komplekslərinin yaradılması prosesi bazar tələbinin ilin istənilən vaxtında yerli məhsullarla ödənilməsinə imkan verir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin diqqətdə saxlanılmasının nəticəsidir ki, soyuducu anbarların sayı artır, istixana komplekslərinin sahəsi genişləndirilir.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni emal və istehsal sahələrinin, ailə təsərrüfatlarının yaradılması nəticəsində bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunur. Bunun 127 növü ərzaq məhsullarıdır. Hazırda 108 ərzaq məhsuluna olan tələbat yerli imkanlar hesabına ödənilir.

Göründüyü kimi, əhalinin ərzaq və qida təhlükəsizliyi insan sağlamlığında, nəslin yetişdirilməsində olduqca vacib əhəmiyyət kəsb edir. Ona görə də muxtar respublikanın aqrar siyasətində ərzaq və qida təhlükəsizliyi daim diqqət mərkəzində saxlanılır, əhalinin sağlam ərzaq məhsulları ilə təmin edilməsi gündəlik tədbirlər sırasına daxil edilir.

*Qədim diyarımızın bugünkü inkişafı onu deməyə əsas verir ki, qloballaşma meyarlarına və modernləşməyə əsaslanan məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyatımız şaxələndirilir, bu isə, öz növbəsində, bütün sahələrdə dinamik artım əldə olunması üçün geniş imkanlar açaraq yeni uğurlara stimul olmaqdadır.*

**Əbülhüseyn ZAMANOV**
***Naxçıvan Dövlət Universitetinin əməkdaşı***

# Bağlarımızın barı, süfrələrimizin bəzəyi – *alma*

*Şərur rayonunun əlverişli təbii-coğrafi şəraiti, bərəkətli torpaqları təsərrüfatın müxtəlif sahələrinin inkişaf etdirilməsinə imkan verir. Bölgənin əməksevər, zəhmətkeş, torpağa bağlı insanları bu imkanlardan səmərəli istifadə edir, əkinçilik, meyvəçilik və digər sahələrlə məşğul olur, məhsul bolluğu yaradır, daxili bazara töhfələrini verirlər. Bununla həm də öz ailə büdcələrini artırırlar.*



Muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Şərurda da meyvəçiliyin inkişafı üçün münbit şərait var. Üstəgəl, icrası uğurla başa çatan “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”, həmin dövlət sənədinin ardınca imzalanmış müvafiq Dövlət proqramı bu sahələrdə yeni uğurlar qazanılmasını təmin edib.

Əvvəlki proqram kimi yeni Dövlət proqramı həm əhalinin həyat səviyyəsinin yüksəldilməsi, təsərrüfat adamlarının torpağa bağlılığının artırılması, yeni iş yerlərinin yaradılması, həm də əhalinin yerli məhsullarla təmin olunmasında böyük əhəmiyyətə malikdir. Bu gün, demək olar ki, rayonun bütün kənd yaşayış məntəqələrində bağçılıq, meyvəçilik inkişaf etdirilir. Daha dəqiq desək, iqtisadi cəhətdən yüksək səmərəliliyə malik olan bu sahələr Şərurun torpaq adamlarının iş yerinə çevrilib. Həmin yaşayış məntəqələrindən biri də Danyeri kəndidir. Danyerində daha çox alma becərilir. Burada yetişdirilən alma sortlarına həmişə yüksək qiymət verilib. Demək olar ki, hamının təsərrüfatında alma bağı var. Kənddə haraya baxsan, bardan başı yerə dəyən alma ağacları görünür.

Kənd sakini Ramiz Həsənov uzun illərdir, bağbanlıqla məşğuldur. Öyrənirik ki, o, bağlarda əkilən dağ almalarını müəyyən müddətdən sonra calaq vasitəsilə çoxaldır. Mirzəliməmməd, darabas, qızılı, alyanaq alma sortları bu yolla artırılan məhsuldar sortlardır.

Müsahibim bağa aqrotexniki qulluq barədə danışaraq bildirir ki, hər yaz fəslində ağacların dibini belləyib boşaldıram. Payız fəslində isə ağacların dibinə üzvi gübrə verir, həmçinin ağacların uzun budaqlarını doğrayıram. Bu il doğranan budaq gələn il daha çox bar verir. Onları müxtəlif vaxtlarda yığıram. Toplanan məhsullar zirzəmilərdə uzun müddət saxlanılır. Neçə vaxtdır ki, yığıma başlanılıb. Ötən il olduğu kimi, bu il də məhsulumuz boldur. Bazara çıxarmaqda da heç bir çətinliyimiz yoxdur. Bağımda həm şirin, həm də turş alma növləri var. Təsərrüfatda çalışan qadınlar almadan mürəbbə, cem, kompot hazırlamaqla bərabər, həm də onu qurudurlar.

Bağban onu da bildirir ki, almanı saplaqlı yığmaq lazımdır. Saplağı üstündə olan almanı uzun müddət saxlamaq mümkündür. Alma saxlanılan yer təmiz və sərin olmalıdır. Alma yeşiklərinin arasına dəfnə yarpağı qoyulur. Dəfnə yarpağı isə onu çürüməkdən qoruyur. Normal şəraitdə saxlanılan bu almalar öz formasını təzə yığılan vaxtdakı kimi saxlayır. Bu almalar bazarda ən yaxşı qiymətə satılır.

Almadan hazırlanan məhsullar da həmişə süfrəmizin bəzəyi olub. Onun turşusunu qoymaq isə xüsusi bacarıq tələb edir, – deyə söhbətimizə qoşulan Telli nənədən bu sirri öyrənirik: “Şıq-şıq” adlanan almadan gözəl turşu olur. Bunun üçün tam yetişməmiş almalar seçilib yuyulur. Həmin almaların saplağının yarısını kəsir, bankaya doldururuq. İstəyə görə nanə, dəfnə yarpağı, döyülməmiş istiot da qoyuruq. Yığılandan sonra hər bankaya bir qaşıq yarı sirkə, sonra isə qaynar su və duz, şəkər tozu əlavə olunur. Bankanın ağzını bağlayıb yuvarladırıq ki, duz ərisin. Sonda isə üzüüstə çevirib üstünü örtürük. Bir gün belə qalması bəs edir.

Mütəxəssislərin dediyinə görə, almanın tərkibində təbii antibiotiklər var. Hər gün alma yemək toksinlərin orqanizmdən xaric edilməsinə, qrip əmələ gətirən virusların məhvinə səbəb olur. Alma həm də ödqovucu xüsusiyyətə malikdir. Öd kisəsində durğunluq olan zaman təzə sıxılmış alma şirəsi içmək faydalıdır. Almanın tərkibində olan şəkər qanda şəkərin miqdarının artmasına səbəb olmur, xolesterini azaldır. Almanın tərkibində olan bioloji aktiv maddələr, vitaminlər və fermentlər xərçəng hüceyrələrinin əmələ gəlməsinin qarşısını alır.

Bu gün həm Şərurda, həm də paytaxt şəhərimizin dükan-bazarlarında meyvə bolluğudur. Dadlı-tamlı, min bir dərdin dərmanı olan bu meyvələrin alıcı qüvvəsi də kifayət qədərdir. Həmin məhsullar içərisində Danyeri almasının öz yeri var.

**✍ Aytac CƏFƏRLİ**

# Təlimlər davam edir



Naxçıvanda “Sarsılmaz qardaşlıq – 2021” Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi davam edir. Təlimin ssenarisinə əsasən bölmələr praktik fəaliyyətləri yerinə yetirirlər.

Bölmələrin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq üçün komanda məntəqələrindən idarəetmə sistemləri vasitəsilə qoşunlar fasiləsiz idarə olunur, birləşmə və hissələr döyüşə hazırolma planlarına uyğun fəaliyyət göstərirlər.

Komandirlər tərəfindən ərazi qiymətləndirilir, düşmən mövqelərinə gizli yaxınlaşma istiqamətləri seçilir, hərəkət marşrutları öyrənilir, şəxsi heyətin fəaliyyəti müxtəlif üsullarla məşq etdirilir.

Xüsusi həmlə qrupları tərəfindən düşmən mövqelərinə yaxınlaşma, düşmənin optik cihazlarından və sərrast atəşindən yayınma fəaliyyətləri icra edilir.

Döyüş təyyarələri, hərbi daşıma və zərbə helikopterlərinin cəlb edildiyi təlimdə çətin pilotoji manevrlərlə təlim-məşq uçuşları keçirilir.

**Nəriman NƏCƏFOV**

# Zəfərə gedən yol

## və ya Vətən müharibəsindəki qalibiyyətimizi düşünərkən…

***27 sentyabr 2020-ci il… Bu tarixə aparan yol çox keşməkeşli oldu xalqımız üçün. Ötən 30 ildə neçə-neçə günahsız oğul-uşaq, qoca-cavan mənfur düşmənin hiyləgər oyunlarının qurbanı oldu. Bu 30 ildə kədərləndik, qüssələndik, qəmləndik, köks ötürdük, gözümüz həsrət dolu baxışlarla boylandıqca yollara. Dədə-baba yurdumuzdan özünə torpaq qəsb etməyə çalışan məkrli, acgöz düşmən illərboyu ayrı saldı Vətəni müqəddəs torpaqlarından. İllər ötdükcə Vətən həsrətilə yanan bağrımız alovlandı, zaman keçdikcə haqqımız nazilərkən… Ancaq nazilsə də üzülmədi haqqımız, tükənmədi səbrimiz, qırılmadı ümidimiz. Nə vaxtsa bir gün vüsala çatacağımıza şübhə etmədik, çünki dövlətimizin qüdrətinə, ordumuzun gücünə hər zaman inandıq. Yanılmadıq, məyus olmadıq, əksinə, qürurlandıq verilən hər qərarla, fəxr etdik düşünülərək atılan hər addımla, fərəhləndik yenilməz ordumuzla, tək yumruq olduq mübariz xalqımızla, öyündük mərd, cəsur, qorxmaz, igid oğullarımızla…***



27 sentyabr 2020-ci il… Bu tarix xalqımızı şanlı zəfərə aparan yolun başlanğıcı oldu. Vətən uğrunda haqq savaşımız başladı bu tarixdə… Öz haqqımız – düz 30 il qara bağlayan Qarabağımız uğrunda bir an belə, düşünmədən döyüşə atıldı on min illərlə hünərli, qeyrətli oğullarımız. Yazdığı qəhrəmanlıq salnaməsi ilə bütün dünyaya göstərdi Azərbaycanın qüdrətini, gücünü, birliyini. Müstəqilliyimiz, torpaqlarımızın toxunulmazlığı uğrunda gözünü qırpmadan özünü odlu-alovlu cəbhəyə atan igidlərimizi müqəddəs bir amal birləşdirirdi bu tarixdə: "biz gəldi-gedərik, təki Vətən yaşasın!" Bu amalla yaşayan təkcə igidlərimiz deyil, onlara bu cəsarəti, bu gücü verən, sıralarını möhkəm edən xalq-ordu birliyi idi həm də.

Namərd, hiyləgər düşmənin ölkəmizə qarşı silahlı hücumları, mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar cənab Prezidentin fərmanı ilə sentyabrın 28-də ölkəmizdə hərbi vəziyyət elan edildi. Həmin tarixdə imzalanmış Sərəncama görə respublikada qismən səfərbərlik bəyan olundu. Bu qərardan sonra xalqımız vahid bir yumruq altında birləşib, "Dəmir yumruq" oldu. Elə bir yumruq ki xalqın gücünü, vəhdətini, mübarizliyini bütün dünyaya göstərdi. Xalq dəmir yumruq ətrafında birləşdi, bu yumruqla daha da qüvvətləndi, mübarizləşdi. Bu yumruqla irəlilədi qələbəyə doğru. Zəfər yolunda Azərbaycanın bütün mərd oğulları kimi naxçıvanlı igidlər də şücaət, qorxmazlıq göstərdilər. Haqq savaşımızda, Vətən, bayraq, torpaq uğrunda kimisi şəhid oldu, kimisi qazi.

…Uşaqdan-böyüyə bütün naxçıvanlıların yaddaşına həkk olundu 1 oktyabr tarixi. İlk dəfə bu tarixdə aldıq naxçıvanlı şəhidlərin öz doğma yurdlarına qayıtma xəbərini, amma bu dəfə uğrunda canlarını fəda etdikləri üçrəngli bayrağa bükülərək döndülər dədə-baba ocaqlarına. Müharibə başladıqda ön cəbhəyə yola düşən ərənlər Raqib Hüseynov, Aqil İsmayılov, Məmməd Zamanlı, Həsən Quliyev, Kamal Əbilov, Fərmin Əliyev və Zülfü Rzayev şəhid xəbərlərini aldığımız ilk qəhrəmanlar oldular. Həmin gün minlərlə insan axın etdi onların cənazələri gələn yollara… Analar, atalar, oğullar, uşaqlar – hər kəs fəxarətdən axan göz yaşları ilə qarşıladı şəhidlərini. Alnımızı açıq edən başıuca oğullar sırasında naxçıvanlı igidlərin göstərdiyi şücaət və qəhrəmanlıq qürur və iftixar hissi yaşatdı hər birimizə. Bu gün hər birimiz ölkə Prezidenti, cənab İlham Əliyevin ***"Naxçıvanlılar İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər"*** sözlərini xatırladıqca belə ər oğullar, nər oğullarla eyni Vətən üçün döyünən ürəyə, eyni yurd üçün tükənməz sevgiyə, eyni torpağa olan bağlılığa görə Tanrıya sonsuz şükür edirik. 44 günlük haqq savaşımızda şəhid verən əsgər analarımız böyüdüb boya-başa çatdırdıqları övladları yolunda ah-nalə çəkmədilər, fəxarətdən göz yaşı tökdülər, atalar belibükük deyil, başı dik dayandılar, övladlarının cənazəsi bükülən bayrağı öpərkən. "Təki Vətən sağ olsun! Biz oğlu bayraq üçün, torpaq üçün böyütdük", – dedilər. Övladı, həyat yoldaşı Vətən uğrunda döyüşlərdə can verən, qan tökən qadınlar şəhid cənazələrini çiyinlərinə alıb, şərəflə daşıdılar. Qürur duyduq, fəxr etdik, yurdumuzun Nigar kimi ər qeyrətli, Həcər kimi dəyanətli əyilməz iradəli, böyük ürəkli qadınları ilə…

Heç unutmaq olarmı, Azərbaycan Ordusunun həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatında qorxmaz, dəmir iradəli, mübariz oğulların düşmənin başına endirdiyi dəmir yumruqları, əməliyyatın ilk günlərində Füzuli və Tərtər rayonları istiqamətində, o cümlədən Murovdağda bir çox strateji məntəqələr azad edildiyi günün sevincini, qürurunu, irimiqyaslı hərbi əməliyyatlar davam etdirildiyi zamanlarda – oktyabrın 3-də şimal cəbhəsində irəliləmək üçün yüksək əhəmiyyətə malik olan Tərtərin Suqovuşan kəndi düşmən tapdağından təmizlənərək orada Azərbaycan bayrağının əbədi qaldırıldığını... Elə həmin gün kəndin tarixi adı da cənab Prezident tərəfindən bərpa edildi – Suqovuşan... Suqovuşana qovuşduğumuz gün son dəqiqə xəbərləri ilə alovlandı, radiolar, televiziyalar. Ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyev özünün rəsmi "Twitter" hesabında Suqovuşanın işğaldan azad olunduğunu, burada Azərbaycan bayrağının qaldırıldığını elan etdiyi gündən sonra da xalq olaraq addım-addım irəlilədik zəfərə… Ertəsi gün yenilməz sərkərdə daha bir zəfər müjdəsi verdi. Cəbrayıl şəhəri və daha bir neçə kənd Azərbaycan əsgərinin gücündən güc alaraq sonsuzadək azadlığa çıxdı. Və beləliklə, zərrə-zərrə azad etdik torpaqlarımızın hər qarışını yağı düşmən tapdağından. Şuşanın azad olunduğu xəbərini dinləyərkən üzünə baxdıqda zəhmindən çəkindiyim, bir dəfə də olsun gözündə yaş görmədiyim atamın sevincdən hönkür-hönkür ağladığının şahidi olduqda bu millət üçün Vətənin hər şeydən uca olduğunu, yurdumuzdan ayrı düşən torpaqların ən böyük nisgilimiz, qapanmaz yaramız olduğunu bir daha dərk etdim. Hər qələbə xəbərində böyükdən-kiçiyə hər kəs gecədən-səhərə axın etdi yollara, əllərində üçrəngli bayraq, dillərində bir şüarla: "Qarabağ bizimdir, bizim olacaq!" Bəli, Qarabağ bizim əzəli dədə-baba yurdumuz idi və artıq əbədi bizim oldu.

Bu iftixar hissini xalqımıza yaşadan igidləri hər an xatırlayıb, anmasaq, bizə ardır. Çünki "Öləcəyik, amma Vətəni qurtaracağıq, torpaqları qaytaracağıq",– deyən igid oğullar 30 illik haqlı mübarizəmizin zəfər müjdəsi ilə millət olaraq başımızı uca etdi bütün dünyada. Cəmi 44 gündə qəlbiqırıq, boynubükük xalqdan, qalib Azərbaycan xalqına çevrildik. Dünya hərb tarixində yeni səhifə açdıq, yeni salnamə yazdıq, şanlı Qələbəyə aparan 30 illik mübarizə yolunda ərənlərimizin qanıyla, canıyla hər addımı həsrət dolu olan yolun sonunda vüsala çatdıq.

Artıq dövlətimiz 30 illik bir tarixi yenilədi. 30 illik bir işğal tarixini dəyişdi. 30 il sonra 44 günlük bir zəfər tarixinə imza atdı. Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, əzmli və azad olmamışdı. Bu, dövlətin mükəmməl siyasəti, xalqın inamı nəticəsində baş verdi. Bu inamı doğruldan yenilməz sərkərdə və xalq vəhdəti oldu. Liderimizin qətiyyətinin nəticəsidir ki, ən ağır vəziyyətlərdə belə, Azərbaycan xalqı heç kimin qaşısında baş əymədi, sözünü cəsarətlə və inamla deyə bildi. ***"Qarabağ Azərbaycandır və nida"*** tribunada deyilən bu fikir sahibinin dünyaya çağırışı əbəs yerə deyildi. Bu həddini aşanlara bir səslәniş, bir xəbərdarlıq idi. Bu sözü bütün dünyaya əməli ilə sübut edən qalib sərkərdənin bir çox yersiz fikirlərə qoyduğu nöqtə idi. Məhz "Dəmir yumruq" siyasətinin nəticəsidir ki, bu gün biz rahatlıqla deyə bilirik ki, "Qarabağ Azərbaycandır!"

Bu gün dünya öz qarşısında güclü, qüdrətli, əzmkar, cəsarətli, nüfuzlu Azərbaycan görür. Çünki bütün dünya haqq savaşımızda xalq, ordu, dövlət həmrəyliyinin şahidi oldu. Hər kəs "Dəmir yumruğ"un nələrə qadir olduğunu anladı. Son ikiyüzillik tarixində Azərbaycan müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Öz doğma yurdlarına qayıtmaq istəyən Azərbaycan vətəndaşlarının uzunmüddətli həsrətinə son qoyuldu.

Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları birgə bəyanatla 30 illik münaqişəyə son qoyuldu, düşmən təslim edildi, 44 günlük Vətən müharibəsi Qələbəmizlə başa çatdı.

Zəfərimizin müəllifi, memarı Müzəffər Ali Baş Komandanın Azərbaycan xalqına tarixi Qələbə müraciətində də dediyi kimi: ***"Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir…"***

Tarixi Qələbə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının da Ana Vətənin digər torpaqları ilə birləşdirilməsinə şərait yaratdı. Belə ki, Naxçıvanın Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın əsas hissəsini birləşdirəcək bütün kommunikasiyaların bərpası istiqamətində mühüm razılaşma əldə olundu və yuxarıda adıçəkilən hər üç ölkənin liderləri tərəfindən bu razılaşmalara imza atıldı. Həmçinin Azərbaycan Respublikasının Prezidenti 2020-ci ilin dekabrında Vətən müharibəsinin yekunları ilə bağlı bir neçə fərman və sərəncam da imzaladı. Bu sənədlər əsasında hər il üçün 8 noyabr "Zəfər Günü" və 27 sentyabr "Anım Günü" kimi təsis edildi. Canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi dekabrın 4-də saat $12^{00}$-da bir dəqiqəlik sükutla yad edildi.

*…Bəli, biz bu gün xoşbəxtik, biz bu gün qürurluyuq. Çünki azadlığı, müstəqilliyi, müqəddəs torpağı uğrunda şəhid verən xalq xoşbəxt xalqdır. Bu mənada, Azərbaycan xalqının qürur hissi keçirməyə, başını uca tutmağa tam mənəvi haqqı var. Bu haqqı bizə verən "Daşına, torpağına qurban olduğum Vətən! Sənin uğrunda ölərəmsə, nə xoş halıma?" – deyən, ömürlərinin bahar çağında Vətən torpağı uğrunda canlarını qurban verən Vətən oğullarıdır. Onlar yurdumuzun hər yerini əbədi laləzara çevirən solmaz fidanlardır. Bu şərəfli yolda hünərlə addımlayan, Vətən darda olanda onun hayına çatan, yağı gülləsinin qarşısına igidcəsinə çıxan, Vətənə tükənməz məhəbbətin son zirvəsinə ucalmaq kimi müqəddəs bir amal üçün haqq savaşında məharətlə vuruşan, məzarları ilə uyuduqları məkanı müqəddəs ziyarətgaha çevirən qəhrəman eloğullarımızın ruhu Vətən göylərində indi azaddır. İllər ötüb, qərinələr dolaşsa da, nə bu tarix, nə onlar əsla unudulmayacaq, başımızı uca edən ərənlərimiz həmişə minnətdarlıq duyğuları ilə yada salınacaq, xatirələrinə hər zaman dərin ehtiram bəslənilәcək, qürurla anılacaqlar.*

✍ **Gülcamal TAHİROVA**

## Pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib

"Naxçıvan" Universitetində pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrlə təcrübəqabağı konfrans keçirilib. Konfransda universitetin rektoru, dosent Nurlana Əliyeva çıxış edərək Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin hamiliyinə verilmiş Azərbaycan dili və ədəbiyyat, Tarix, Coğrafiya, informatika, xarici dil müəllimliyi, Riyaziyyat və informatika müəllimliyi ixtisaslarının müvafiq kurs tələbələri ilə keçirilən təcrübəqabağı konfransın əhəmiyyətindən danışıb.

Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov qeyd edib ki, "Naxçıvan" Universitetində yaradılan müasir təhsil və yüksək sosial məişət şəraitinin nəticəsidir ki, ötən il məzunlardan ixtisas seçimi zamanı bu təhsil ocağına üstünlük verənlər çoxluq təşkil edib.

Bildirilib ki, pedaqoji təcrübəyə cəlb olunan tələbələr bu prosesdə ümumtəhsil məktəblərində tədris sistemini müşahidə etməklə sosial və pedaqoji dəyərlərə yiyələnirlər. Belə konfransların keçirilməsi tələbələrin aldıqları nəzəri bilikləri tətbiq etmələri və pedaqoji prosesi əyani şəkildə öyrənmələri baxımından mühüm əhəmiyyət kəsb edir.

Nazir məktəblərdə təcrübə müddəti ərzində yerinə yetiriləcək işlərlə bağlı məktəb direktorlarına aidiyyəti üzrə tapşırıqlar verib.

"Pedaqoji təcrübənin xüsusiyyətləri" mövzusunda çıxışında Tədris şöbəsinin müdiri Anar Abuzərli qeyd edib ki, oktyabrın 1-dən noyabrın 20-dək universitetin pedaqoji profilli 8 ixtisasında təhsil alan tələbələr Heydər Əliyev adına tam orta məktəbdə, Naxçıvan şəhər 11, 12 və 15 nömrəli tam orta məktəblərdə pedaqoji təcrübədə olacaqlar. Yeddihəftəlik pedaqoji təcrübədə 180 tələbə iştirak edəcək.

"Təcrübə zamanı pedaqoji və Psixoloji işlər" mövzusunda çıxış edən Pedaqogika və psixologiya kafedrasının müdiri Aytən Məmmədova bildirib ki, pedaqoji təcrübə müəllim hazırlığı işinin ilk mərhələsi olduğundan mühüm əhəmiyyətə malikdir.

Sonda tələbələrin sualları cavablandırılıb.

## Müəllimlər Günü qeyd olunub

Muxtar respublikanın ali təhsil ocaqlarında 5 oktyabr – Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbirlər keçirilib.

Naxçıvan Dövlət Universitetində keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Vurğulanıb ki, ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər ölkə Prezidenti cənab İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsini bir daha təsdiq edir. Ölkəmizdə təhsilin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsinin nəticəsidir ki, bu sahədə mühüm Dövlət proqramları icra olunur və kompleks tədbirlər həyata keçirilir. Rektor Beynəlxalq Müəllimlər Günü münasibətilə bütün müəllimləri təbrik edib, onlara pedaqoji və elmi fəaliyyətlərində uğurlar arzulayıb.

Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Sədaqət Nemətova, Teatr və mədəniyyətşünaslıq kafedrasının müəllimi Mirakif Seyidov, İngilis dili müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi, Prezident təqaüdçüsü Zübeydə Zeynalova tədbirdə çıxış ediblər.

"Naxçıvan" Universitetində keçirilən tədbir başlanmazdan əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Nurlana Əliyeva qeyd edib ki, Beynəlxalq Müəllimlər Gününün qeyd olunması müstəqil Azərbaycanda ulu öndər Heydər Əliyev tərəfindən 1993-cü il oktyabrın 5-də rəsmiləşdirilib. Ümummilli liderin müəyyənləşdirdiyi təhsil strategiyasının davamı olaraq muxtar respublikamızda peşəkar müəllim ordusu formalaşdırılıb.

Naxçıvan Müəllimlər İnstitutundakı tədbiri giriş sözü ilə açan institutun rektoru Azad Novruzov professor-müəllim heyətinin peşə bayramlarını təbrik edib. Rektor vurğulayıb ki, ölkəmizdə təhsilin inkişafının dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilməsinin nəticəsidir ki, son illərdə bu sahədə mühüm Dövlət proqramları icra olunur və əsaslı tədbirlər həyata keçirilir. Ölkəmiz bu gün dünyada özünün müasir təhsil infrastrukturu və təhsil ənənələri ilə seçilir. Müəllim əməyinə daim yüksək qiymət verilir, onlara böyük hörmətlə yanaşılır. Təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır.

Sonra Pedaqoji fakültənin İngilis dili müəllimliyi üzrə I kurs tələbəsi Aysel Ağalarova müəllimləri təbrik edib.

Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbirlər bədii hissə ilə yekunlaşıb.

Müəllimlər Günü münasibətilə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə "Qənaətcil büdcəm" adlı maarifləndirici təlim keçirilib.

Tədbirdə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Azad Novruzov, Maliyyə Tədris Mərkəzinin direktoru, dosent Mehriban İmanova çıxış ediblər.

Maliyyə Tədris Mərkəzinin əməkdaşı Pərviz Babayev təlim haqqında məlumat verib.

Sonda qalib komandaya və təlim müddətində fərqlənən tələbələrə sertifikat və hədiyyələr təqdim olunub.

**Xəbərlər şöbəsi**

Estafet

# Qızıl payız olmaq üçün...

*(esse)*



***Fəsillər içərisində bir fəsil vardır. Bəzən kövrək, həssas, qırılan, bəzən isə hirsli olur. Küləyi ilə əsib sovurub, ildırımları ilə barmaq silkələsə də, ömrün xəzan çağını görəndə buludları ilə dolub boşalır. Bu qarışıq duyğuları özündə birləşdirən payız bir az da insan ömrünü xatırladır. Günləri, ayları bir-birinin ardınca qovaraq böyüyən otlar, güllər, ağaclar bu fəsildə ömürlərinin xəzan çağını yaşayırlar. Necə ki, insanın yaşlanması ilə sahib olduğu sağlamlığını, əmək qabiliyyətini itirməsi kimi.***

Ömrümüzdən illər ötüb keçir, xəzan yarpaqlarının bir-bir töküldüyü kimi. Bəzən geriyə dönüb baxdıqda qırdığımız qəlbləri, itirdiyimiz dəyərləri görüb payız buludları kimi doluruq. Ağlayırıq saatlarla, günlərlə, amma unuduruq ki, yaz yağışlarından fərqli olaraq payız yağışlarının solmuş güllərə, tökülən xəzanlara heç bir faydası olmayacaqdır...

Həyətdə bir ağac görürəm... Saralmış yarpaqları ömrün illəri kimi tökülür. Lakin üstündəki meyvələr budağını əyir. Sanki ömrünün xəzan çağında insanlara fayda verdiyi üçün çox sevinclidir, "anlayır" ki, ömür ilin fəsilləri kimidir. Gəncliyimiz yaz fəsli, ahıllığımız payızdır. İstəyir ki, xatirələrdə gəncliyində yaşıl budaqlarının kölgəsi, ahıllığında meyvələrinin faydası ilə qalsın.

Pəncərəmdən seyr etdiyim bu payız mənzərəsinin fonunda düşüncələr, sanki payızın ahənginə qoşulur və insanı düşündürür. Həyat özü necə də böyük bir məktəbdir. Həm də öyrənməyi birbaşa təcrübə ilə gerçəkləşdirən bir məktəb. Unutmayın, görünənin hər zaman arxada gizli bir planı vardır. Təəssüf ki, insanların çoxu bunun fərqində deyil. Ətrafımıza diqqətlə baxsaq, daha doğrusu, görmək üçün, öyrənmək üçün baxsaq, çox şey görərik...

Gəlin həyatda zamanın nə qədər dəyərli və geri qayıtmaz olduğunu anlayaraq yaşayaq. Ömrümüzə biçilən zamanda cəmiyyət üçün faydalı olaq ki, ömrün xəzan çağında, hər şey sona çatanda payız buludlarıtək dolub gözümüzdən peşimançılıq yaşları axıtmayaq. Həyatımızı elə yaşayaq ki, xatirələrdə "qızıl payız" olaraq qalaq. Amma bu adı bizə xəzanımızın rənginə görə deyil, insani dəyərlərimizə, təmiz vicdanımıza və ən əsası isə dürüstlüyümüzə görə versinlər.

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Orta tibb işçiləri üçün təlim-treninq

***Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi publik hüquqi şəxsdə orta tibb işçiləri üçün təlim-treninq keçirilib.***

Çağırışçı-həkim Əhməd Məmmədov qeyd edib ki, ilkin tibbi yardım hər hansı bir qəza və ya həyati təhlükə yaradan bir vəziyyətdə həkimlərin köməyi təmin edilənə qədər həyatın xilas olunması və ya vəziyyətin daha da pisləşməsinin qarşısını almaq məqsədilə hadisə yerində tibbi vəsaitsiz, mövcud vasitə və vəsaitlərlə edilən dərmansız müalicə prosesidir. İlk tibbi yardım xəstələnmə yerində təcili göstərilməlidir. Onun məqsədi həyati təhlükəni ortadan qaldırmaq, həyati funksiyaların davam etdirilməsini təmin etmək, xəstə və ya yaralının vəziyyətinin pisləşməsini önləmək, yaxşılaşmanı asanlaşdırmaqdan ibarətdir.

Sonra o, təcili yardım praktikasında tez-tez rast gəlinən hemorragik insultun yaranma səbəbləri, əsas risk faktorları, əlamətləri və səbəbləri barədə məlumat verib.

Çağırışçı-həkim Səma Qurbanova çıxış edərək miokard infarktın tibbi yardımı və profilaktikası haqqında, onun təhlükəlilik dərəcəsi, risk amilləri və risk qrupları barədə məlumat verib.

Təlim-treninq zamanı ilkin tibbi yardım qaydaları mulyaj üzərində aparılıb, videogörüntülərlə müşayiət edilib. Müzakirələr aparılıb, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Vətəndaşın olduğu yer üzrə qeydiyyata alınması necə həyata keçirilir?***

***Cavab:*** Qanunvericiliyə əsasən vətəndaşın olduğu yer üzrə qeydiyyatı yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmadan aparılır.

Mehmanxanaya, sanatoriyaya, istirahət evinə, kempinqə, turist bazasına, yataqxanaya, xəstəxanaya və digər belə ictimai yerlərə gələn vətəndaş üçün ərizə-anket doldurulur və həmin yerin müdiriyyətinə verilir. Müdiriyyət ərizə-anketi 24 saat ərzində müvafiq dövlət orqanına təqdim edir.

Yaşayış yerindən kənarda 60 gündən artıq müvəqqəti yaşamaq istəyən vətəndaş həmin yerə gəldikdən sonra 7 gün ərzində (istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü istisna olmaqla) ərizə-anket doldurarq müvafiq dövlət orqanına təqdim etməlidir. Həmin orqan vətəndaşı dərhal olduğu yer üzrə qeydiyyata almalıdır. Vətəndaş olduğu yerdən getdikdə müvafiq dövlət orqanı onu olduğu yer üzrə qeydiyyatdan çıxarır.

***Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Özünüməşğulluq proqramı çərçivəsində növbəti aktivlər təqdim edilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sentyabr ayında həyata keçirilmiş özünüməşğulluq tədbirləri çərçivəsində muxtar respublika üzrə 29 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və bu şəxslərdən 19 nəfərin hər birinə 2 baş iribuynuzlu, 5 nəfərin hər birinə 20 baş xırdabuynuzlu heyvan, 1 nəfərə inkubator aparatı, 2 nəfərə miniyerşumlayan aqreqat, 1 nəfərə inkubator və quş tükü təmizləyən aparat, 1 nəfərə isə iaşə xidmətinin göstərilməsi üçün avadanlıqlar verilib. Özünüməşğulluğu təmin edilənlərdən 14 nəfərini sağlamlıq imkanları məhdud şəxs, 1 nəfərini şəhid ailəsi üzvü, 1 nəfərini cəzaçəkmə müəssisəsindən azad olunan şəxs, 1 nəfərini isə ailə üzvləri sırasında qazi olan şəxs təşkil edib. Əlavə edək ki, bu mərhələdə təsərrüfatlarını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə 1 nəfər həvəsləndirmə tədbirlərinə cəlb olunub və ona arpa-buğda qıran aqreqat verilib.



Sözügedən aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi müvafiq Dövlət proqramlarının icrası çərçivəsində özünüməşğulluğa cəlb olunmuş ailələrin təsərrüfatlarında qısa müddət ərzində artımlar olub, bu da həmin ailələrin sosial rifah halının yaxşılaşmasına müsbət təsir edib. Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin direktoru Heydər Quliyev və Culfa Rayon Məşğulluq Mərkəzinin direktoru Ülvi Rzayev ötən dövr ərzində proqramın icrası çərçivəsində görülən işlərdən danışıb, əldə olunan nəticələrdən bəhs ediblər. Sonra yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Dünya təcrübəsi göstərir ki, qloballaşmanın nəticəsi olaraq son illərdə uşaq və yeniyetmələrin qida qəbulu vərdişlərində əhəmiyyətli dəyişikliklər baş verib. ABŞ və Avropada aparılan tədqiqatlar belə bir nəticəni ortaya qoyur ki, hər iki valideynin işlədiyi ailələrin sayının artması və vaxt məhdudiyyəti yarımfabrikat, qismən hazır və ya hazır qida məhsulları bazarının genişlənməsinə səbəb olub. Həmin yarımfabrikatlar evdə bişirilən yeməkləri tədricən üstələyir. Beləliklə, evdən kənarda yemək tədricən daha çox ailələri əhatə etməkdədir.***

*Mütəxəssis sözü*

## Məktəblilərin sağlam qidalanması hər birimizi düşündürməlidir

Məktəb kurikulumunda yemək hazırlamaq və yaxud qidalarla bağlı məlumatlandırma dərslərinin olmaması da uşaqların bu sahədə məlumatlılığını və bacarıqlarını məhdudlaşdırır. Uşaq və yeniyetmələrin əksəriyyəti sağlam qidalanma üçün vacib olan bacarıqlara yiyələnməmiş qalır. Onlar üçün evdən kənarda yemək daha asan və yeganə çıxış yolu olur. Bu isə qəbul edilən yeməklərin həcminin artmasına və uşaqlar tərəfindən kalori tərkibi məlum olmayan qida məhsullarının çoxlu miqdarda qəbuluna gətirib çıxarır. Bu zaman isə yüksək enerjili, yağ, şəkər və duz tərkibi çox olan qəlyanaltılar və əlüstü yeməklər, həmçinin meyvə və tərəvəz qəbulunun az olması gələcəkdə orqanizm üçün ciddi fəsadlar törədir. Ümumdünya Səhiyyə Təşkilatının Avropa regionunda apardığı "Məktəbyaşlı uşaqlar arasında sağlam davranış" adlı tədqiqatdan məlum olub ki, uşaqlar arasında orta hesabla meyvə və tərəvəzin qəbulu çox aşağıdır. Yaş artdıqca uşaqlar arasında müntəzəm meyvə və tərəvəzin qəbulu da azalır. Ayaqüstü ("fast-fud") yeməklərin qəbulu getdikcə uşaq və yeniyetmələrin sağlamlığı üçün əhəmiyyətli olan səhər yeməklərini də əvəz etməyə başlayır. Tədqiqatlar göstərir ki, səhər yeməyinin buraxılması tərkibində şəkər və yağ miqdarı yüksək olan qida məhsullarının qəbuluna şərait yaradır. Buna görə də səhər yeməyinin yeyilməməsi uşaq və yeniyetmələr arasında səhərlər yorğunluğa və dərsə davamiyyətin aşağı düşməsinə səbəb olur.

Ölkəmizdə də evdə müşahidə edilən davranış və valideynlərin tövsiyələrinin uşaqların məktəbdə qida seçiminə ciddi təsir göstərdiyi aşkarlanıb. Aparılan tədqiqatlardan məlum olub ki, uşaqlar evdən məktəbə, əsasən, peçenye və ya biskvit (25 faiz), içməli su (25,5 faiz), kolbasa və ya sosiskalı çörək (22,4 faiz) gətirirlər. Maraqlıdır ki, valideynlərin 44,7 faizi məktəbdə nahar etmək üçün uşaqların çantasına meyvə və ya tərəvəz qoymur.

Sosial faktorlar da qidalanmaya təsir göstərir. Qida qəbulu vərdişləri, ərzaq məhsullarının seçimi, uşaq və yeniyetmələr arasında yemək qəbulunun xüsusiyyətlərinin təhlili ailənin təsirinin azalmasından və həmyaşıdların təsirinin artmasından xəbər verir. Amerika Pediatriya Akademiyasının tədqiqatlarına görə, yemək qəbulu vərdişlərinin dəyişməsi "bönyümə və valideyn təsirindən azad olma" ilə əlaqələndirilə bilər. Bu cür müstəqillik evdən kənarda yemək hallarının və əlüstü yeməklərin qəbulunun artmasına səbəb olur. Uşaq və yeniyetmələr müxtəlif sahələrdə həmyaşıdlarının təsirinə və təzyiqinə məruz qalırlar və yemək qəbulu bu sahələrdən biridir. Uşaqlar arasında inkişaf edən qidalanma vərdişləri və qida məhsullarının seçiminə aşağıdakı faktorlar təsir göstərir: dad, valideynlərin yanaşması, məktəbdə qidalanma və mediada marketinq. Yeniyetmələr və uşaqların bir çoxu, həmçinin ideal bədən quruluşuna malik olma baxımından ciddi psixoloji və sosial təzyiqə məruz qalır. Bununla yanaşı, şagirdlərin 58 faizinin sağlam qidalanmaya dair məlumatı valideynlərindən alsa da, 42 faizinin valideynlərdən heç bir məlumat almadığı ortaya çıxıb. Burada valideynlərin sağlam qidalanmaya dair məlumatlarının az olması da mühüm faktorlardandır.

Bir fizioloq, sağlam qidalanma mütəxəssisi (dietoloq) kimi 11 illik praktik təcrübəyə əsaslanaraq bu sahədə əldə etdiyimiz bəzi nəticələri də oxucularımızla bölüşmək istərdik. Qeyd edək ki, bu illər ərzində bizə istər ibtidai siniflərdə, istərsə də yuxarı siniflərdə oxuyan şagirdlərin valideynləri həm çəki azlığı, həm də çəki artıqlığı ilə bağlı müraciətlər etmişlər. Bizim praktik statistikamızda çəki artıqlığı ilə əlaqədar müraciət edənlərin sayı, çəki azlığı problemi üzündən müraciət edənlərdən daha çoxdur. Bunun da yaşayış vəziyyətinin yaxşı olmasından qaynaqlanan məqamları olduğu kimi, mübadilə pozuntusundan, doğru zamanda doğru qida seçimi etməməkdən qaynaqlanan səbəbləri də mövcuddur. Uşaq yaşlarından piylənmənin hansı səbəbdən baş verdiyini araşdırmaq üçün mütəxəssislərə müraciət edilməlidir. Bəzi anaların uşaqlara yanlış diet menyuları tətbiq etməsi böyüyən uşaq orqanizmində ilk illərdə bariz görünməyən psixoloji və fizioloji problemlər yarada bilər. Qida seçiminin uşağın davranışlarına təsiri danılmazdır. Bu gün dünyanın bir çox ölkələrində qidalanma sistemini dəyişməklə uşaqlarda davranış pozuntusundan tutmuş epilepsiya, otizm, hiperaktivlik kimi nevroloji sindromların müalicəsi ilə bağlı yeni sistemlər qurulub. Bu xəstəliklərdən uşaqları qurtarmağın yolları kəşf edilib, praktik təcrübədən keçirilərək yüksək nəticələr əldə edilib. Zənnimizcə, bu cür uşaqların qidalanması ilə bağlı yeni tendensiyalardan xəbərdar olmaqla qidalanmamızdakı doğru davranışları qoruyub saxlamaqla uşaqlarımıza vaxtında kömək edə bilərik.

*Sonda onu qeyd edək ki, Naxçıvan Muxtar Respublikası zəngin yeraltı və yerüstü sərvətlərə malik bir diyardır. Burada sağlam həyat tərzi yaşamaq üçün geniş imkanlar var. Çünki Uca Yaradan bu torpağa hər cür nemət verib, digər tərəfdən dövlətimiz insan sağlamlığına, ətraf mühitin qorunmasına böyük diqqət yetirir. Bizim cəmiyyət olaraq vəzifəmiz isə bütün bunlardan layiqincə istifadə etmək, gələcəyimiz olan uşaqların sağlam böyüməsi üçün indidən səy göstərməkdir.*

**Pərvanə QƏHRƏMANOVA**
***"Şəfa" Özəl Tibb Mərkəzinin əməkdaşı, dietoloq***

### İtmişdir

Şərur rayonunun Məmmədsabir kəndində yaşamış Əhmədova Raziyə Tağı qızının adına olan 247[A]/032 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Mahmudkənd sakini İmanov Yusif Möhsün oğlunun adına verilmiş JN-84[B] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Səmədov Vəli Dağıstan oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şeyxova Səkinə Xəlil qızının adına olan JN-153[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 828